

GÜLŞƏN MUSTAFA

# QƏRİBƏ MUSİQİÇİ

*(hekayə)*

Həyatının son ayları pəncərənin dəbdəbəli pərdəsinin aralı yerindən çölə baxmaqla keçirdi. Evin içi onu sıxırdı. Xüsusi zövqlə bəzədiyi evi gözündən düşmüşdü. O, bu evi bəzəyərkən belə xəyal etməmişdi. Onun çiçəkli xəyallarında heç tikan yox idi. Hər şey gözəl olacaqdı. Əzizləyərək böyütdüyü, tək balasını evləndirəcəkdi. Özü kimi gözəl-göyçək, ağıllı-kamallı bir gəlin gətirəcəkdi. Yeni evini gözəl nəvələri bəzəyəcəkdi. Əri ilə baş-başa verib tikdikləri bu evdə xoşbəxt yaşayacaqdılar. Artıq bütün çətinliklərin arxada qaldığını düşünürdü. Əri və oğlu ilə fəxr edirdi. Qonum-qonşu, qohum-əqrəba ilə söhbətlərində, oğlunun yaraşığını, ağlını dilindən salmırdı. Sona xanımın oğlu ali məktəbi bitirirdi. Qız axtarışında idi. Hamıya soraq salmışdı. Nə qədər Orxan hələ evlənmək istəmədiyini desə də, anası univerisiteti qurtaran kimi nişanlamağı, əsgərlikdən qayıdan kimi də evləndirməyi planlayırdı. Hə bu yerdə deyiblər ee "Sən saydığını say, gör fələk nə sayır".

Bir gün qonşu Səlimə xanım Sonagilə gəldi. Ordan-burdan söhbəti fırladıb gətirdi Orxanın üstünə. Səlimənin dediyinə görə, Orxanın qonşu qızı Şəbnəmdə gözü var. Qızın da ürəyi ondadır. Səlimə də bu işə vəsilə olmaq istəyir.

Şəbnəm qızıl kimi qızdır, maşallah, əla gəlin olacaq.

Elə bil cin vurdu Sonanı, yumdu gözünü, açdı ağzını:

-Bəxtəvər mənim başıma, gör kimi layiq görürsən ey mənim yaraşıqlı, ağıllı ogluma.

Yazıq Səlimənin canına vəlvələ düşdü.

-Nə olub ki, Şəbnəmə?

-Ta nə olasıdı, həm topal, həm də yetim. Taytıya-taytıya qulluq edəcək mənə? Sən Allah, heç yaraşır bu evə, bu ailəyə? Heç səndən gözləməzdim.

-Mən də sənnən gözləməzdim. Elə yaxşı qızdı niyə özün almırsan oğluna?

-Nə deyim vallah, ta sənə sözüm yoxdu.

Sözünü deyib başını bulaya-bulaya qapıdan çıxıb getdi. Sona isə hələ də Səlimənin dalınca deyinirdi.

Qapı açıldı, Şəbnəm əlində sini ehtiyatla içəri girdi.

-Anacan, bu dəfə dovğa lap sən istəyən kimi çıxıb. Orxan üz-göznü büruşdürdü, amma sən bəyənəcəksən. Qəşəngcə turşməzə alınıb.

Sona uzaqlara səfər etmiş gözlərini çəkib içəri gətirdi. Şəbnəmin ağzını büzərək Orxanı yamsılayan üzünə, içi sevincdən parıldayan gözünə zillədi. Şəbnəm Sonanın cavablarını gözündən oxumağı öyrənmişdi. Yan otaqdan Or-

xanın iniltisi gəldi. Səsi eşidən kimi Şəbnəmin gözündəki sevinci təlaş əvəz etdi. Yatağın üstündə sininin yerini rahatlayıb, tez otaqdan çıxdı.

Sona artıq sol əliylə qaşıq tutmağa alışmışdı. Daha üstünü batırmadan yeyə bilirdi. Dovğa, doğrudan da, lap o, bəyəndiyi kimi çıxmışdı. Şəbnəmin hər işi onun bəyəndiyi kimi eləməyə çalışması onu çox sıxırdı. Şəbnəmin heç nəyə baxmayaraq Orxanı nə qədər şox sevdiyini anladıqca, içində yaranan ani sevinc hissini tezliklə, ona duyduğu qəzəb əvəz edirdi. Sonanın fikrincə, başlarına gələn hadisədə tək günahkar Şəbnəmdir. Şəbnəmin qarğışına düşdüklərinə özünü o qədər inandırmışdı ki, qızın heç bir işini bəyənmirdi. Onun yaxşılıqları Sonaya əzab verirdi. O hadisəni ha unutmağa çalışsa da alınmırdı. O dəhşətli hadisəni unutması üçün ölməsi gərəkirdi. O ölüm adlı mükafatı belə Allah ona çox görmüşdü. Onu "düşməninə" möhtac buraxmışdı.

Sonagildən pərt halda çıxan Səlimə özünü evə zorla saldı. Mətbəxə keçib özünə çay süzüb, oturdu oğlunun qarşısında. Anasının vəziyyətini görən Aslan nə olduğunu xəbər aldı.

-Nə olacaq, ay bala, guya istədim bu Şəbnəmlə Orxanın məsələsini Sonaya deyəm. Yazıq Orxan qorxusundan fikrini anasına deyə bilmir.

Aslan diqqətlə anasına baxaraq dedi:

-Hə, nə dedi?

Səlimə başını bulayıb baxışlarını oğlunun üzündən çəkib çayına baxa-baxa dilləndi:

-Nə deyəcək, məni biyabır elədi. "Mənim ailəmə, oğluma o topal yetimçə yaraşmaz", - dedi.

Qəfil şaqqıltı səsinə Səlimə arxaya döndü. Əlindəki stəkanı salıb sındırmış, üzü sapsarı saralmış Şəbnəmi görəndə xəcalətindən az qaldı yerə girsin. Şəbnəm ayağını sürüyə-sürüyə arxasına baxmadan çıxıb getdi. Səlimə nə biləydi ki, Şəbnəm Lalənin yanında imiş.

O gündən Şəbnəm çölə-bayıra çıxmırdı. Həyatdan küsmüşdü. Orxanı görmək üçün saatlarla nəfəs-nəfəsə dayandığı pəncərədən də uzaq düşmüşdü. Həftələr sonra Orxan əsgər getmişdi. Şəbnəmin günləri daha da dözülməz və uzun olmuşdu. Şəbnəmin tək yoldaşı otağının dörd divarı və kitabları idi. Bu otaqda saatın əqrəbi də topal idi elə bil. Taqqıltısı baş aparsa da, rəqəmdən rəqəmə zorla gedib çatırdı. Yazıq qız Səlimgilə də gedə bilmirdi. Gör bir mən də yazıq adlandırdım. Onu isə ən çox incidən elə insanların ona acıması idi. Heç kəsi görmək istəmirdi. İnsanların gözündən oxuduqlarını çəkə bilmirdi. Allahın onu niyə sevmədiyini, niyə zavallı biri kimi yaşamağa məhkum etdiyini anlamırdı. İçindəki üsyanı tez də dəf edir, Allahına yalvarır, dərgahında diz çökür, əl açıb dua edirdi.

Günlərin sürünə-sürünə keçdiyi bir ev də vardı. Bu evin divarları oğul həsrəti çəkən ana qəlbinin narahat döyüntüsünə şahid olmaqdan utanırdı. Pəncərələri həsrət və peşimançılıq dolu gözlərin dikildiyi yollarda istədiyini göstərə bilmədiyi üçün peşman idi. Səlimənin qulaqlarından oğlunun acıqlı səsi, xəyalından küskün baxışları getmirdi. Bütün bunlara baxmayaraq yenə də oğluna haqq verə bilmirdi. Axı onun yaraşıqlı balası hər şeyin ən yaxşısına layiq idi...

Bir gün tamam unutduqları müharibənin küləyi bu evə doldu. Bu tufan yerlə-yeksan etdi bu mehriban ailəni. Qara baxtlı Qarabağ sərhədlərində partlayan bir bombanın küləyi idi bu külək. Bu evin tək övladı Orxanın ayaqlarını yerdən üzən bu küləyə ata qəlbi dözmədi. Xəbəri verən telefondakı səsin son sözünü dinləməyə səbri çatmadı elə bil bu yorğun ürəyin. Sonanın ah-nalə dolu qışqırığı oğlunun çarpayıda uzanmış sarıqlı, dizdən aşağısı olmayan ayaqlarını görəndə son dəfə hayqırdı. Palataya sığmayıb, xəstəxanaya yayılan səs o qaçan qaçdı Sonadan...

Sonanı o palatada ilişib qalmış xəyallardan boş qabı aparmağa gələn Şəbnəmin ayaq səsləri ayırdı. Dözə bilmədiyi addım səsləri. Qəribə ahəngi vardı bu addımların. Tavanla birləşib bəstələnmiş qəribə bir musiqi olmuşdu. Sonanı hər gün bir az da öldürən bir musiqi. Bu evin qismətində tək yeriyən sakininin bu addımlarının musiqisinə alışmaq da varmış...